<table>
<tr><td>Gülara  Firuddin qızı İsmayılova</td><td></td></tr>
<tr><td colspan="2">Gülara  Firuddin qızı İsmayılova  3 iyun 1956-cı ildə Bakı şəhərində anadan olub. 1973-1978-ci illərdə Azərbaycan  İnşaat  Mühəndisləri  institutunda təhsil alıb. 1978-ci ildə Bakı  şəhəri Baş Memarlıq  Planlaşdırma İdarəsində memar kimi işləyib. Layihə - Konstruktor-Texnoloji institutu, memar, mühəndis-konstruktor vəzifəsində çalışıb.<br>İsmayılova Gülara 1984-1995-ci ildə  “Bakıdövlətlayihə” institutu baş memar, həmçinin “Xəzər” MMC-də memar, “İçərişəhər”  Dövlət Tarix-Memarlıq  Qoruğu  İdarəsinin Elmi-İstehsalat  Bərpa emalatxansının Layihə-smeta bürosunda müdir vəzifəsində işləyib. 40-dan çox kayihənin müəllifidir.<br>O, Şərq ölkələri Beynəlxalq Memarlıq  Akademiyasının  müxbir üzvüdür. Memarlar İttifaqlarının Beynəlxalq  Assosiasiyası  Diplomu (ilin ən yaxşı layihəsi  müsabiqəsi), Azərbaycan  Respublikası  Memarlar  İttifaqı (ilin ən yaxşı  layihəsi müsabiqəsi) II dərəcəli  diplomuna layiq görülüb.<br>Azərbaycanın  Əməkdar  memarı (2012), Azərbaycan  Respublikası Memarlar  İttifaqı tərəfindən çoxillik  yaradıcılıq  fəaliyyətinə  görə  Fəxri  Fərmanla (2016 və 2021-ci illərdə), “Ustad  Memar” sertifikatı (2018) ilə təltif olunub.</td></tr>
</table>